## Azərbaycan dili

1. Nümunənin düzgün təhlil sxemini müəyyən edin.
*Eldar kürəyini divara söykədi, gözlərini yumub bir qədər fikrə getdi.*



2. Hansı birləşmənin birinci tərəfindəki sonuncu samit fərqli tələffüz edilir?
A) neft fontanı
B) sərrast deyim
C) bəxt üzüyü
D) qurd ağzı
E) dəqiq adam

3. Frazeoloji birləşmələrə aid xüsusiyyətləri müəyyən edin.
1. Poetik funksiya daşıyır.
2. Asılı tərəfi birinci, əsas tərəfi ikinci tərəfdir.
3. Cümlədə yalnız feili xəbər olur.
4. Feili birləşmənin əsas tərəfi ola bilir.
5. İsmi birləşmənin asılı tərəfi ola bilir.
A) 1,2,3 B) 1,4,5 C) 3,4,5
D) 1,3,4 E) 2,4,5

4. Nümunələrin birində köməkçi nitq hissəsi ***işlənməmişdir***:
A) Bəlkə, bu yerlərə bir də gəlmədim. (M.Araz)
B) Ömrün kitabını tamamlamağa hələ tələsməsin əlimdə qələm. (S.Vurğun)
C) Səninlə olduğum o gözəl illər,
Niyə ömrümüzdən tələsdi getdi?
D) Əlçatmaz dağların zirvəsinədək bu nə gözəllik, nə cah-calaldır?
E) Dağların, meşənin düz arxasından çiçəktək çırtladı günəş üzümə.

5. Biri söz birləşməsi ***deyil***:
A) yaylaqda olmaq
B) misal eləmək
C) gözə gəlmək
D) dəniz tərəf
E) imtahan haqqında

6. Hansı nümunədə ismi birləşmə işlənmişdir?
A) Sellər, sular dərələrə hay salar,
B) Zümzüməli bulaqların çağlayar,
C) Ayrılığın ürəkləri dağlayar,
D) Selinə qarışım, qoy axım, dağlar.
E) Sinəndən yurduma qoy baxım, dağlar.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

7. Mürəkkəb adlardan birinin yazılışı ***səhvdir***:
A) Bakı Dövlət Universitetinin Filologiya Fakültəsi
B) İsmayıllı Rayon Təhsil Şöbəsi
C) Vətən Müharibəsi Qəhrəmanı
D) "İstiqlal" ordeni
E) Qədim Daş dövrü

8. Uzlaşma əlaqə pozulan, qrammatik norma ***pozulmayan*** cümləni müəyyən edin.
A) Qış yavaş-yavaş dağdan enirdi.
B) Ceyranlar tufan başladığına görə baş-başa durmuşdular.
C) Təzəcə açılmış güllər gecənin sazağında elə bil titrəyirdi.
D) Bir neçə quzu qaçıb sürüyə qoşuldular.
E) Gözəllər çıxıbdır seyrana, gəlsin.

9. Hansı sözlər ismi birləşmənin əsas tərəfi ola bilməz?
1. baxdıqda 2. tərəf 3. gözəl
4. gördük 5. savayı
A) 1,2,3 B) 2,4,5 C) 1,3,4
D) 1,4,5 E) 2,3,5

10. Nümunədə söz birləşməsi ilə ifadə olunan cümlə üzvlərini müəyyən edin.
*Bulaq zümzüməsi, şəlalə səsi,*
*Qırılmış könlümü ovuda bilər.*
*Mehriban əllərin saçda gəzməsi,*
*Körpənin göz yaşın quruda bilər.*
A) yalnız mübtəda
B) tamamlıq, təyin
C) yalnız tamamlıq
D) mübtəda, zərflik
E) mübtəda, tamamlıq

11. Verilmiş cümləyə əsaslanaraq cədvəldəki uyğun fikirləri müəyyən edin.
*Məktəbimizin bütün şagirdləri tədbirin hazırlanmasında fəal iştirak etdilər.*

| ***Doğrudur*** | ***Yanlışdır*** |
|---|---|
| 1. Bütün cümlə üzvləri var.<br>2. Baş üzvlər söz birləşmələri ilə ifadə olunmuşdur.<br>3. Xəbər feilin xəbər şəklindədir. | 4. Tamamlıq məsdər tərkibi ilə ifadə olunmuşdur.<br>5. Təyini əvəzlik təyin vəzifəsindədir.<br>6. Cümlədə tərzi-hərəkət zərfliyi var. |

A) 1,2,3 B) 4,5,6 C) 3,4,5
D) 1,4,6 E) 2,3,5

12. Hansı sözlər söz-cümlə kimi işlənə bilər?
1. təbii 2. yaxşıdır 3. əsla
4. kimi 5. təəssüf
A) 1,2,3 B) 2,4,5 C) 2,3,4
D) 1,3,4 E) 1,3,5

13. Biri feili birləşmədir:
A) dərs danışmağım
B) dəniz sahili
C) sizin gülməyiniz
D) sözü yerə düşmək
E) dost olmaq

14. İsmi birləşmə olsa da, isimdən istifadə ***olunmayıb***:
A) şəhərdəki göydələnlər
B) misri qılınc
C) yüksək vəzifəlilər
D) mənim dediklərim
E) sıldırım qaya

15. “Bizim komanda yarışda qalib gəldi” cümləsi ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
*1. İsmi birləşmənin tərəfləri cümlənin birlikdə üzvüdür.*
*2. Feili birləşmə xəbər vəzifəsindədir.*
*3. Mübtəda və xəbər arasında şəxsə və kəmiyyətə görə uzlaşma əlaqəsi var.*
*4. İsmi birləşmənin tərəfləri isimlərdən ibarətdir.*
*5. Cümlədə təyin var.*
A) 1,2,3 B) 3,4,5 C) 2,3,4
D) 1,2,4 E) 1,2,5

16. Yalnız birində uzlaşma əlaqəsi var:
A) Məktub yazdı.
B) xeyirxah insan
C) Ehtiram, geri qayıt.
D) Adil və sən mehribancasına görüşdü.
E) Qəsəbə səliqəlidir.

17. “*Ana cəbhədəki oğluna isti corab toxuyurdu*” cümləsində hansı sözlər arasında sintaktik əlaqə ***yoxdur***?
A) ana – toxuyurdu
B) cəbhədəki – oğluna
C) isti – corab
D) corab – toxuyurdu
E) ana – oğluna

18. Hansı cümlədə tamamlıq ***yoxdur***?
A) Heç ürəkdən şad olmayan adam gülərmi?
B) Qeyri-ixtiyari divar saatına baxdım.
C) Paslanmış dəmir parçasından kotan düzəltdilər.
D) Vətən yolunda şəhid olanları unutmarıq.
E) Divarda boya ilə gözəl naxışlar çəkilmişdir.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

19. Hansı cümlədə “təzə” sözü zaman zərfliyidir?
A) Təzə aldığı paltarlar Leyliyə çox yaraşırdı.
B) İlqar bizim kollektivə təzə qoşulmuşdu.
C) Kitabxanaya təzə kitablar gətirilmişdi.
D) Dediyiniz fikir təzə deyil.
E) Bu avadanlıqlar heç də təzədən seçilmir.

20. Cədvələ əsasən düzgün fikirləri müəyyən edin.
***I*** *Elnurun çəkdiyi rəsm əsərləri nümayiş etdirilmək üçün sərgiyə göndərildi.*
***II*** *Elnur imtahandan yüksək bal topladığı üçün çox sevinirdi.*

| I | II |
|---|---|
| 1. Məqsəd zərfliyi məsdər tərkibi ilə ifadə olunub.<br>2. Feili sifət tərkibi təyin vəzifəsindədir.<br>3. Xəbər qayıdış növdə olan feillə ifadə olunub. | 4. Cümlədə bir zərflik var.<br>5. Xəbər məlum növdə olan feillə ifadə olunub.<br>6. Hər iki baş üzv sadədir. |

A) 1,3,5 B) 3,4,6 C) 2,5,6
D) 1,2,4 E) 1,5,6

21. Hansı cümlədə söz birləşməsi ilə ifadə olunan cümlə üzvü var?
A) Zəhmət insanı kasıblıqdan xilas edər.
B) Yaxşı insan əməlləri ilə yaxşıdır.
C) Elman, oxuduğun kitabları da gətirərsən.
D) Kitablarımın bir qismini kitabxanaya bağışladım.
E) Müəllim qeyri-adi hadisələr haqqında danışırdı.

22. Nümunənin düzgün təhlil sxemini müəyyən edin.
*Hörmətli müəllim, siz bu uşaqlara ana dilində yazıb-oxumağı öyrədərsiniz.*
A) 
B) 
C) 
D) 
E) 

**Açıq tipli test tapşırıqları:**

23. Verilmiş cümlədə hansı cümlə üzvlərinə aid nümunələr var?
*Az danışmağın gözəlliyini dərk edən insan nüfuzdan düşməz.*
1. mübtəda 2. xəbər 3. təyin
4. tamamlıq 5. zərflik

t.me/BirlikTeam1

24. Bir-birilə eyniköklü olan sözləri müəyyən edin.
    1. qırıq 2. qırçı 3. qırğın
    4. qıraq 5. qırdığım 6. qırılmaq

25. Yalnız köməkçi nitq hissəsi kimi işlənən sözləri müəyyən edin.
    1. tərəf 2. ancaq 3. tək
    4. üçün 5. görə 6. bəli

26. Yalnız sadə sözlər işlənmiş cümlələri müəyyən edin.
    1. Kəndin havası həmişə yazda çox gözəl olur.
    2. Elmanı çağırmaqdan gəlib məni çağırıb.
    3. Nərgiz xalaya razılığımı bildirdim.
    4. Oturanlara baxıb geri qayıtdı.
    5. Kürün səsindən başqa bir səs eşitmədim.

27. Uyğunluğu müəyyən edin.
    1. Yalnız baş üzvlərdən ibarət cümlələr
    2. Baş və ikinci dərəcəli üzvlərdən ibarət cümlələr
    a. Kənd camaatı elə bil yuxuya getmişdi.
    b. Müstəqillik uğrunda mübarizə aparanlar meydandan çəkilmirdilər.
    c. Dədə-babalarımızın özünəməxsus qayda-qanunları vardır.
    d. Bəs kitab oxumusan, bala.
    e. Bizim təklifimiz hamının xoşuna gəldi.

**Mətni diqqətlə oxuyun və 28-30-cu sualları cavablandırın.**

Qədim zamanlarda bir gəmi kapitanının çox böyük bir xəzinəsi var idi. O bu xəzinəni gəmidəki öz otağında saxlayırdı. Bir gün kapitan yenə öz gəmisi ilə səfərə çıxdı. Kapitanın xəzinəsindən xəbər tutan bir oğru da onunla birlikdə gəmiyə mindi. Ancaq gəmidə onunla birlikdə bir neçə başqa sərnişin də var idi. Oğru öz-özünə bir plan qurmuşdu. O, əvvəlcə kapitanın xəzinəsini oğurlayacaq, sonra da bu xəzinəni öz otağında gizləyəcəkdi. Gəmi sahilə yan *alan*[1] kimi isə xəzinəni götürüb *qaçacaqdı*[2].

Nəhayət, bir gün oğru kapitanın otağına getdi. Qapını döyən kimi kapitan içəridən:

– Kimdir? – deyə soruşdu.

Bu vaxt oğru qapını açdı və:

– Üzr istəyirəm, elə bildim, öz otağımdır, – dedi.

Amma kapitan çox ağıllı adam idi. O dəqiqə gələn adamın oğru olduğunu başa düşdü. Və vaxt itirmədən oğrunu tutdu. Bir az sorğu-sualdan sonra isə oğru günahını ............ . Hamı heyrətlə kapitandan:

– O adamın oğru olduğunu necə başa düşdünüz? – deyə soruşdu.

Kapitan:

– Çox asan! – deyə cavab verdi və izah etdi.

Hamı kapitanın zəkasına heyran qaldı.

28. Üzərində rəqəm yazılmış sözlərə əsasən cədvəli tamamlayın.

| 1-ci sözün mətndəkindən fərqli mənada işlədildiyi cümlə | 2-ci sözü kontekstə görə əvəz edə bilən ifadə |
|---|---|
| | |

29. Mətnin məzmununa uyğun olaraq nöqtələrin yerinə hansı frazeoloji birləşmə və həqiqi mənalı söz yazmaq olar?
    1. ...............
    2. ...............

30. Mətnin məzmununa uyğun kapitanın oğrunu necə müəyyən etdiyini bir neçə cümlə ilə izah edin.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BilikTeam1

## Tarix

31. Orta Paleolit dövrünə aid xüsusiyyətləri müəyyən edin:
1.İnsanların təbiət qüvvələri ilə bağlı dini təsəvvürləri yaranmağa başladı
2.Eramızdan 35 min il əvvələ qədər davam etmişdir
3.Nitq əlverişli ünsiyyət vasitəsi oldu
4.Ulu icmanı qəbilə icması əvəz etdi
5.Azıx, Tağlar, Zar Daşsalahlı və Qazma mağaraları əsasında öyrənilmişdir
6.İbtidai əkinçilik meydana gəlmişdir
A) 1,3,5 B) 1,2,5 C) 2,3,4
D) 4,5,6 E) 2,4,6

32. Verilənlərin aid olduğu Osmanlı hökmdarını müəyyən edin:
*- Bolqarıstanı tabe edərək Balkan yarımadasında Osmanlının mövqelərini daha da gücləndirdi.*
*- Konstantinopol ətrafında istehkam və qalalar inşa etdirdi.*
A) Sultan Murad B) Sultan Süleyman
C) Orxan Qazi D) Osman Qazi
E) I İldırım Bəyazid

33. II Vaçenin dövründə Albaniya dövlətində baş vermiş yenilik:
A) Xristinalığın dövlət dini elan edilməsi
B) Aquen kilsə məclisinin çağırılması
C) Arşaki sülaləsinin hakimiyyətə gəlməsi
D) Paytaxtın köçürülməsi
E) Albaniya Sasanilərin şimal canişinliyinin (“Azərbaycan kustu”nun) tərkibinə daxil edilməsi

34. Verilən xüsusiyyətlərin aid olduğu feodal dövlətlərini müəyyənləşdirin:
*1. Rey şəhərini Samanilərdən aldı*
*2. Alp Arslan tərəfindən varlığına son qoyuldu*
*3. Səlcuqların tənəzzülü dövründə yenidən müstəqil oldu*




A) 1-A; 2-B; 3-C B) 1-B; 2-C; 3-B
C) 1-C; 2-B; 3-A D) 1-A; 2-C; 3-B
E) 1-C; 2-A; 3-B

35. Şirvanşahlar dövlətinin XII əsr tarixinə ***aid deyil:***
A) Monqollar tərəfindən qarət edilməsi
B) Şirvanın Gürcüstana birləşdirmək cəhdinin qarşısının alınması
C) Səlcuq türkləri ilə dostluq münasibətlərinin bərpa edilməsi
D) Slavyan hücumuna məruz qalması
E) Gürcü çarı IV Davidin yürüşü

36. 1689-cu il İngiltərə parlamentinin qəbul etdiyi “Hüquqlar haqqında bill” qanununa əsasən:
1. Söz, mətbuat, toplaşmaq və din azadlığı hüquqlarının qorunmasına zəmanət verirdi
2. İngiltərə parlamentli monarxiyaya çevrildi
3. Kral qanunlara veto qoymaq hüququnu itirdi
4. Stüartlar sülaləsi bərpa edildi
5. Dövlət Böyük Britaniya adlanmağa başladı
A) 2,4 B) 3,5 C) 1,2 D) 4,5 E) 2,3

37. Səfəvilərin XVII əsrin II yarısı tarixi ilə bağlı ***doğru olmayan*** bəndi müəyyən edin:
A) Divan və xalisə torpaqları aparıcı mülkiyyət forması idi
B) Ali şiə ruhaniləri hakim təbəqənin ikinci qrupuna daxil idi
C) Təsərrüfata malik olmayan kəndlilər rəncbər adlanırdı
D) Elatlar orduda xidmət əvəzində az miqdarda vergi verirdi
E) Soyurqal hərbi və mülki xidmətə görə verilən şərti torpaq mülkiyyəti idi

38. I Pyotrdan fərqli olaraq II Yekaterina:
A) Qara dəniz sahillərinə çıxmaq üçün Osmanlı ilə müharibə apardı
B) Baltik dənizi sahillərinə çıxış əldə etdi
C) Qara dənizdə üzmək, Bosfor və Dardanel boğazlarından sərbəst keçmək hüququ qazandı
D) Ordu və mədəni sahədə islahatlar keçirdi
E) İsveçə qarşı ittifaq yaratdı

39. Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a. Qarabağ xanlığına uğursuz hərbi yürüş
b. “Bayat savaşı”da iştirak
c. “Qızılqaya xəyanəti”də iştirak
d. Azərbaycanın cənub torpaqlarına yürüş
e. Gavduşan döyüşündə məğlubiyyət
A) 1-e; 2-b; 3-a,d B) 1-b; 2-c; 3-d
C) 1-a,c; 2-b; 3-d D) 1-e; 2-a; 3-c
E) 1-c; 2-d; 3-e,b

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

40. Səfəvi dövlətinin XVIII əsrin 30-cu illərinə aid hadisələrin xronoloji ardıcıllığını müəyyən edin:
1. Kirmanşah sülh müqaviləsinin imzalanması
2. III Abbasın şah elan edilməsi
3. Rusiyanın Kürdən cənubdakı xəzəryanı torpaqları tərk etməsi
4. Osmanlının zəbt etdiyi bütün Səfəvi torpaqlarını tərk etməsi
A) 4,3,2,1 B) 2,1,3,4 C) 3,2,4,1
D) 1,3,2,4 E) 1,4,3,2

41. Qarabağ xanı Pənahəli xanın Fətəli xan Əfşardan asılılığa son qoymaq üçün atdığı addım:
A) Kərim xan Zəndin ittifaq təklifini qəbul etdi
B) Rusiyanı Qarabağa yürüşə başlamağa təhrik etdi
C) Məhəmmədhəsən xan Qacar ilə ittifaq qurdu
D) Şahbulaq qalasını inşa etdi
E) "Qızılqaya xəyanəti"də iştirak etdi

42. 1787-ci il ABŞ konstitusiyası üçün xarakterik ***deyil:***
A) Ştatların nümayəndələrinin iştirak etdiyi təsis məclisi tərəfindən qəbul edildi
B) ABŞ federativ respublika oldu
C) Qanunverici hakimiyyət konqresə məxsus idi
D) Prezident qanunlar üzərinə veto qoya bilərdi
E) Məhkəmənin hökmü olmadan həbslər keçirmək qadağan edildi

43. Hadisə - nəticə əlaqələrinin ***doğru*** göstərildiyi cavabı müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | E.ə 321-ci ildə Perdikkinin öldürülməsi | Kiçik Midiyada Atropatın hakimiyyəti sona çatdı |
| 2 | Atropatena hökmdarı Ariovastın ölümü | III Antioxun Atropatenaya hücumu |
| 3 | I əsrdə Parfiyanın Atropatenanın müstəqilliyinə son qoyması | Albaniyanın Roma ilə əlaqələri gücləndirməsi |
| 4 | Antoninin sərkərdəsi Kanidini Cənubi Qafqaza göndərməsi | İber və Alban hökmdarlarının məğlub edilməsi |
| 5 | Fraaspanın Roma ordusu tərəfindən mühasirəyə alınması | Atropatena ordusunun romalıları məğlub etməsi |

A) 3,4,5 B) 1,2,3 C) 1,2,4
D) 2,3,4 E) 1,3,4

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

44. 2-ci mətndə verilən hökmdardan fərqli olaraq 1-ci mətndə bəhs edilən hökmdar üçün xarakterikdir:
**Mətn-1**
*Mərkəzi Asiyada yaşayan 26 tayfanı öz hakimiyyəti altında birləşdirdi. Geniş fəthlər nəticəsində dövlət imperiyaya çevrildi. Sərhədləri şərqdə Koreyadan qərbdə Xəzər dənizinə, şimalda Sibirdən cənubda Kaşğara qədər uzanırdı.*
**Mətn-2**
*Bütün ölkə üzərində hakimiyyətini möhkəmləndirərək bir sıra sahələrdə islahatlar keçirdi. İslahatları xalqa çatdırmaq üçün müxtəlif səmtlərdə 33 kitabə qoydurmuşdu. Buddizmin əsas himayədarı və təbliğatçısı kimi yadda qalmışdı.*
1. Turan taktikasından istifadə
2. E.ə III əsrdə fəaliyyət göstərməsi
3. Vahid dövlətin əsasının qoyulması
4. Yunan - Makedoniya işğalına qarşı mübarizə
A) Yalnız 1 B) 2,3 C) 1,4
D) Yalnız 3 E) 1,2

45. *Qay Yuli Sezar Qalliyadan Romaya yürüş edərək əsas rəqibi Pompeyin qüvvələrini məğlub etdi. Nəticədə Sezar rəsmi olaraq diktator oldu. Respublikanı monarxiya ilə əvəz etmək istəyi Senatda öldürülməsinə səbəb oldu.*
**Mətndə bəhs edilən hadisələrin baş verdiyi əsrə uyğun gəlir:**
1. Afina ilə Sparta arasında müharibənin başlanması
2. Karfagenin Roma əyalətinə çevrilməsi
3. German tayfalarının Qərbi Romaya yürüşlərinin genişlənməsi
4. Oktavianın Roma imperatoru olması
5. Roma poeziyasının "qızıl dövrü"nün başlanması
A) 1,2 B) 3,4 C) 1,5 D) 4,5 E) 2,4

46. Səfəvi hökmdarları Şah I Abbas ilə Məhəmməd Xudabəndə üçün ümumi cəhətdir:
A) Osmanlılar ilə müharibənin yeni mərhələsinin başlanması
B) Xəzinənin boşalması, mərkəzi hakimiyyətin daha da zəifləməsi
C) Osmanlılar ilə sülh müqaviləsinin imzalanması
D) Paytaxtın köçürülməsi
E) Azərbaycan bəylərbəyiliyinin yaradılması

47. Uyğunluğu müəyyən edin:




A) 1,3,4 B) 2,4,5 C) 1,4
D) 2,5 E) 1,4,5

48. Səfəvi dövlətinin XVII əsrin 60-cı illəri və XVIII əsrin 10-cu illəri tarixinə aid oxşarlığı müəyyən edin:
A) Rusiya dövləti ilə müqavilə bağlanması
B) Hacı Davudun rəhbərliyi ilə üsyan baş verməsi
C) Saray çevrilişi nəticəsində hökmdarın dəyişməsi
D) Əhalinin siyahıyaalınması keçirilməsi
E) Xəzəryanı torpaqların Rusiya tərəfindən işğalı

49. Fernando Magellanın başçılıq etdiyi ilk dünya səyahətinin nəticələrinə ***aid deyil:***
A) İspan dənizçiləri yeni okena çıxmağı bacardılar
B) Yerin kürə şəklində olması təcrübi cəhətdən qəti sübuta yetirildi
C) Bütün okeanların bir-biri ilə əlaqəli olduğu sübut edildi
D) Dənizçilər 1522-ci ildə İspaniyaya qayıda bildilər
E) Meksika, Mərkəzi və Cənubi Amerikanın böyük hissəsi İspaniyanın nəzarəti altına keçdi

50. Prut çayı sahilində imzalanan sülhə əsasən:
A) I Pyotr imperator adlandırıldı
B) Rusiya Azov qalasını Osmanlılara qaytardı
C) Kiyev də daxil olmaqla Solsahil Ukraynası və Belarusiyanın bir hissəsi Rusiyaya verildi
D) Reç Pospolita ilə tarixi düşmənçiliyə son qoyuldu
E) Şimal müharibəsi sona çatdı

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

51. Uyğunluğu müəyyən edin:




A) 1-a; 2-b B) 1-c; 2-a,b C) 1-a,c; 2-b,c
D) 1-a,b; 2-b,c E) 1-c; 2-a

52. Osmanlının XVI əsrin ikinci yarısı, İngiltərənin XVII əsrin birinci yarısı tarixləri üçün ümumi cəhəti müəyyən edin:
A) Əkbər şah ilə siyasi əlaqələrin qurulması
B) İspan donanmasının məğlub edilməsi
C) Vyana şəhərinin mühasirəyə alınması
D) Səfəvi dövləti ilə müqavilə imzalanması
E) Sənaye çevrilişinin başlanması

**Açıq tipli test tapşırıqları:**

53. Dövlət xadimlərinin fəaliyyətinə aid olan ***doğru*** sıraları müəyyən edin:

| № | Dövlət xadimi | Fəaliyyəti |
|---|---|---|
| 1 | Teymuri hökmdarı Şahrux | Qaraqoyunlu dövlətinin asılı hala salınması |
| 2 | Xubilay xan | Yuan sülaləsinin əsasının qoyulması |
| 3 | Əlaəddin Xələc | Xarəzmşah Cəlaləddinə öz ərazisində sığınacaq verdi |
| 4 | Əkbər şah | Paytaxtı Aqra şəhərinə köçürdü |

54. Xilafətin vergi və mükəlləfiyyətlər ilə bağlı siyasətinə uyğun gəlir:
1. Əmirliyin mərkəzinin Dəbildən Bərdəyə köçürülməsi
2. Sasani dövlətinin vergi sistemini qismən dəyişiklik etməklə qüvvədə saxladı
3. Əməvilər və Abbasilər sülaləsi dövründə vergilər artırıldı
4. Müsəlman əhali xüms və zəkat ödəməli idi
5. Vəqf icarəyə verilirdi, lakin onu satmaq və bağışlamaq olmazdı

55. Xəritədə ulduz ilə işarələnmiş dövlətin tarixinə aid xüsusiyyətləri müəyyən edin:



1. XI əsrin ortalarında feodal ara müharibələri
2. Şimali Afrikada Vandal krallığının tutulması
3. V yüzilliyin sonunda meydana gəlməsi
4. Verden müqaviləsinin imzalanması

56. Nadir şahın daxili siyasətinə aiddir:
1. Məşhəd şəhərinin paytaxt seçilməsi
2. Baş vəzir və sədr-əzəm vəzifələrinin ləğvi
3. Ərdəbil, Zəncan, Xalxal, Qaradağ və Lənkəran vilayətləri hesabına Azərbaycan bəylərbəyiliyi yaratdı
4. Bağdadda Osmanlı ilə müqavilə imzaladı
5. Din xadimlərinin dövlət işlərinə müdaxiləsinin qarşısını aldı

57. Uyğunluğu müəyyən edin:
*1. İrəvan xanlığı*
*2. Naxçıvan xanlığı*
*3. Gəncə xanlığı*
a. Əsası Qacar tayfasının Ziyadoğlu nəsli tərəfindən qoyuldu
b. Gürcü çarı, Qarabağ və Xoy xanlıqlarından asılı vəziyyətə düşdü
c. Əsası Kəngərli tayfası tərəfindən qoyuldu
d. Bir müddət Qarabağ və gürcü çarlığının təyin etdiyi nümayəndələr tərəfindən idarə edilirdi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *Cavab vərəqində* cavablandırın.**

XVII əsrin əvvəllərində Avropa, xüsusilə də Müqəddəs Roma İmperiyası dərin bir böhran içində idi. Auqsburq sülhü ilə qurulan kövrək dini müvazinət, kalvinizmin rəsmi tanınmaması və protestantlığın sürətlə yayılması fonunda sarsılmağa başlamışdı. Katolik Habsburq sülaləsinin imperiya daxilində mərkəzi hakimiyyəti gücləndirmək və katolikliyi yenidən hakim etmək cəhdləri, yerli əyanların azadlıq arzuları ilə kəskin şəkildə toqquşurdu. Zaman keçdikcə münaqişənin miqyası daha da böyüdü və Danimarka, İsveç və Fransa kimi xarici dövlətlər öz strateji maraqlarını qorumaq üçün prosesə müdaxilə etdilər. Baxmayaraq ki, müharibə dini zəmində başlamışdı, sonrakı mərhələlərdə siyasi və ərazi iddiaları üstünlük təşkil etməyə başladı. Bu proses sonda Avropanın siyasi xəritəsini kökündən dəyişdirdi.

58. Mənbədə bəhs edilən müharibədə iştirak etməyən böyük Avropa dövlətlərindən birini tarixi biliklərinizə əsasən müəyyən edin:

59. Tarixi biliklərinizə əsasən bəhs edilən müharibənin başlama və bitmə tarixlərini (1) və sonda imzalanmış sülhü (2) müəyyən edin:

60. Mənbədə bəhs edilən müharibənin Almaniya üçün nəticələrini tarixi biliklərinizə əsasən müəyyən edin: (azı 1 nəticə)

## Ədəbiyyat

61. Hansı əsər haqqında məlumat ***yoxdur***?
1. Məhəbbətin insanı saflaşdıran, nəcibləşdirən hiss olduğu öz əksini tapıb.
2. Məhəbbət mövzusunda qələmə alınan bu əsər şairə dövrünün bir sıra mühüm problemlərinə münasibət bildirməyə imkan vermiş, insanın mənəvi azadlığını uca tutmuşdur.
3. İctimai-fəlsəfi görüşlərini geniş əks etdirən qiymətli sənət əsərində ictimai ədalət ideyası, insan ləyaqətinin ucalığı, əməyə, elmə, sənətə hörmət hissi ön plana çəkilib.
4. “Xalq və dövlət üçün cavabdeh olan şəxs – hökmdar öz vəzifə borcunu bir an da olsa, unutmamalı, laqeydliyə, biganəliyə yol verməməlidir” fikri aşılanır.
5. Məhəbbət mövzusuna toxunmuş, sevgi hissinin ülviliyini, insanı mənən saflaşdırdığını və ucaltdığını yüksək sənətkarlıqla tərənnüm etmişdir.
A) “Xosrov və Şirin” B) “Sirlər xəzinəsi”
C) “Leyli və Məcnun” D) “Yeddi gözəl”
E) “İsgəndərnamə”

62. Şeir parçası haqqında verilən fikirlərdən hansı ***yanlışdır***?
*Yer əlimdən, göy telimdən öpürkən,*
*Mən Koroğlu,*
*Vaxt dəyirman,*
*Ömürdən...*
*Bir doyumluq möhlət umdum ömürdən,*
*Qara dəniz, heç şərqindən doymadım.*
*M. Araz*
A) Şeirin olduğu ölçü son dövrlərdə formalaşıb.
B) Şeirdə bədii xitabdan istifadə edilib.
C) Şeirinin bütün misralarında inversiyaya rast gəlinir.
D) Birinci misrada metafor işlədilib
E) İkinci və üçüncü misralarda təşbehə aid nümunə var.

63. “Kitabi – Dədə Qorqud” dastanı haqqında doğru fikirləri müəyyən edin.
1.Vətənin toxunulmazlığı, xalqın müdafiəsi oğuz igidlərinin qarşısında duran ən mühüm vəzifədir.
2. Eposun yaradıcısı başqası olsa da, ilk söyləyəni ozanlar ozanı Dədə Qorqud olmuşdur.
3. Dədə Qorqud tarixi şəxsiyyət sayılsa da, onun haqqında çoxlu əfsanə və rəvayətlər də yaradılmışdır.
4. Epos eyni süjet xətti ilə bağlı olan ayrıca boylardan ibarətdir.
5. Dastanın bütün boylarının ümumi ideyası və məzmunu var.
A) 2, 4 B) 2, 3, 4 C) 1, 3, 5
D) 2, 4, 5 E) 1, 2, 3

64. Füzulinin “Məni candan usandırdı” şeirinin məzmunu ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Aşiq sevgisi yolunda sonsuz əzab-əziyyətlə qarşılaşır.
B) Əsərdə başdan sona qədər real dünyəvi məhəbbət təsvir edilmişdir.
C) Əsərlərdə real insani duyğuların təsviri çox güclüdür.
D) Qəzəlin əksər beytlərində lirik qəhrəmanın yara, münasibətində sufiyanə məhəbbətin əlamətləri hiss olunur.
E) Əsərin lirik qəhrəmanı səmimi, sədaqətli və cəfakeş obrazdır.

65. A.Bakıxanovun “Hikmətin fəziləti” əsəri ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Hadisələr Azərbaycan ərazisində cərəyan edir.
2. Şah həkimin sifarişini yerinə yetirmək üçün insanları sarayına çağırtdırır.
3. Padşah həkimin vəsiyyətini yerinə yetirərkən divanələrdən ehtiyat edir.
4. Padşahın sarayına toplaşan insanların hamısı ağıllı və təvazökar insanlar idi.
5. Sonda üzüyün təqdim edildiyi şəxsi vəzir təyin edirlər.
A) 2, 3, 5 B) 1, 2, 4 C) 1, 3, 5
D) 2, 4, 5 E) 1, 4

66. Eyler-Venn diaqramına əsasən uyğun fikirləri müəyyən edin.




1. Ana dilində yazılmış ilk epik əsərdir.
2. Vahid süjet xətti yoxdur.
3. Poema janrında yazılıb.
4. Müəllifi məlum deyil.
5. Fars dilində yazılıb.
6. Şərə qarşı tənqidi münasibət bildirilir.
A) 2, 3, 6 B) 1, 4, 5 C) 2, 4, 6
D) 1, 3, 6 E) 1, 3, 5

67. Həyatı əksetdirmə üsulununa görə biri digərlərindən ***fərqlənir***.
A) “Cami - cəm”
B) “Qisseyi - Yusif”
C) “Yusif və Züleyxa”
D) “Etməgil”
E) “Mehr və Müştəri”

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

68. Cədvəldə verilmiş əsərlərin forma xüsusiyyətlərini nəzərə alaraq doğru fikirləri müəyyən edin.

| **"Bənövşə"** | **"Mənəm, mən"** |
|---|---|
| 1. Təbiət mövzusunda yazılıb.<br><br>2. Həm şeir vahidi, həm də şeir şəkli gəraylı ilə eynidir. | 3. Şeir vahidi qitə ilə eyni olsa da, qafiyə quruluşuna görə qitədən fərqlənir.<br><br>4. Hürufilik ideyalarını əks etdirən təriqət şeiridir. |
| 5. Tərənnüm əsasında əruz vəznində yazılıb.<br>6. Əsərin sonunda müəllifin adı və ya təxəllüsü verilir. | |

A) 1, 4, 5 B) 2, 3, 6 C) 2, 4, 6
D) 2, 3, 5 E) 1, 2, 3

69. Nəsiminin "Sığmazam" şeiri əsasında doğru fikirləri müəyyən edin.
A) Şeirin birinci beytinin qafiyə quruluşu digər beytlərdən fərqlənmir.
B) Təbiət mövzusunda yazdığı əsərlərdəndir.
C) Əsərdə insanın maddi və mənəvi aləmlə eyni olması fikri əksini tapmışdır.
D) Lirik qəhrəman qətiyyətli olmasa da, fikirlərinin doğru olduğuna əmindir.
E) Şeir əruzun rəməl bəhrində yazılıb.

70. Nöqtələrin yerinə uyğun **olmayan** fikirləri müəyyən edin.
*Şah İsmayıl Xətayinin "Dəhnamə" əsərində Aşiq....*
1. Əsərin əvvəlində sevənləri axmaq adlandırır.
2. Bağbanla məsləhətləşdikdən sonra məşuqəni axtarmağa gedir.
3. Gördüyü yuxudan sonra eşqin əzab-əziyyətindən şikayətlənir.
4. İlk məktubunu Huş ilə göndərir.
A) 1, 2 B) 3, 4 C) 2, 3 D) 2, 4 E) 1, 3

71. Seyid Əzim Şirvaninin "Guş qıl" müxəmməsi ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Şeirin ilk misrasında kədər olsa da, sona doğru nikbin hisslərlə əvəzlənir.
2. İctimai mövzulara həsr edilmiş əsərlərindən biridir.
3. Əsərdə dini rəvayətlərə də müraciət etmişdir.
4. Müəllif müğənninin nəfəsini Davudun səsi ilə maqyisə edir.
5. Tarı qadağan olunmuş alət hesab edilməsini böhtan kimi qiymətləndirir.
A) 2, 3, 5 B) 1, 2, 4 C) 3, 4, 5
D) 2, 3, 4 E) 1, 3, 5

72. Verilmiş hissədə hansı bədii təsvir vasitəsi işlənmişdir?
*Sən bilməmisən ki, mən nə şuxəm,*
*Kirpigi, qaşı yay ilə oxəm,*
A) inversiya B) mübaliğə C) metafor
D) epitet E) təşbeh

73. Cədvəldə verilənlərə əsasən **uyğunsuzlu** müəyyən edin.

| | | |
|---|---|---|
| A) | "Könlümü" *(M.V.Vidadi)* | Ədalətsizliyin qurbanı olan insanların faciəsindən bəhs edilir. |
| B) | "Neylərəm?" *(İ.Nəsimi)* | Məhəbbət mövzusunda yazılıb. |
| C) | "Apardı könlümü.." *(İ.Həsənoğlu)* | Qəzəlində insanları iki qrupa ayrır. |
| D) | "Dastani-Əhməd hərami" | Əsər müsbət qəhrəmanın adı ilə adlandırılıb. |
| E) | "Cami -cəm" *(M.Övhədi)* | İnsanların haqlarını müdafiə edilir. |

74. Ş.İ.Xətayiyə aid olan bu parçaya aid doğru fikri müəyyən edin.
*Quşlar qamusu fəğanə düşdü,*
*Eşq odu yenə bu canə düşdü.*
*Yer geydi qəbayi-xizrpuşan,*
*Cümlə dilə gəldi ləbxamuşan.*
A) Əsər Xətainin lirik növdə yazdığı müstəqil bir əsəridir.
B) Təbiət mövzusunda yazılan bu parçada bədii sualdan istifadə edilmişdir.
C) Qafiyə quruluşu qəzəllə eynidir.
D) Bir varlığa aid xüsusiyyətlərin başqa bir varlığın üzərinə köçürülməsindən istifadə edilib.
E) Əruz vəzninin rəcəz bəhrində yazılmışdır.

75. Füzulinin "Leyli və Məcnun" əsəri əsasında nöqtələrin yerinə uyğun **gəlməyən** fikirləri müəyyən edin.
*Leylinin anası.....*
1. qızının davranışlarına görə öz ailəsinin adını zədələnəcəyindən qorxur.
2. oğlanın aşiq olması qəbul edilən, qız üçün isə təhlükəli hal olduğu düşüncəsindədir.
3. hər kəsin şəxsi seçimi ictimai rəydən üstün tutulmalıdır fikrini öz əməlləri ilə göstərir.
4. qızlar cəmiyyətin dəyərlərinə uyğun davranmalıdır fikri ilə razı olan obrazdır.
5. qızının bir şəxsiyyət kimi yetişməsi üçün onun fikirlərinə hər zaman dəyər verir.
6. düşünür ki, aşiqlik yalnız Leyli üçün təhlükəlidir.
A) 1, 3, 6 B) 2, 4, 5 C) 3, 5, 6
D) 1, 2, 4 E) 3, 4, 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/Birlik_team1

76. Seyid Əzim Şirvaninin "Qafqaz müsəlmanlarına xitab" əsərinin məzmunu ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Əsər müxəmməs janrındadır.
2. Şairin satirik əsərlərindəndir, cəmiyyətdə olan qüsurlar tənqid edilir.
3. Şair Qafqaz əhlinin digər xalqlardan geridə qalmasının səbəblərindən bəhs etmişdir.
4. Əsərdə xalqın düşmənlərinə qəzəb və nifrətlə yanaşı, mütərəqqi ideyaları təbliğ edir.
5. Şair nöqsanları göstərsə də, aradan qaldırmaq üçün yollar göstərməmişdir.
A) 2, 5 B) 1, 3, 4 C) 1, 2, 5
D) 3, 4 E) 2, 3

77. Eyler-Venn diaqramına əsasən fərqləndirilmiş hissəyə uyğun ***gəlməyən*** bəndi müəyyən edin.




A) Hər iki obraz ataları tərəfindən əsrlikdən xilas edilir.
B) Əsir olarkən düşmənə boyun əyməmələri, mərdlikləri.
C) Hər ikisi ovda olarkən düşmən tərəfindən əsir alınır.
D) Düşmənin onları alçaltmaq üçün fiziki əzab verməsi.
E) Döyüş meydanında atlarının vurulması nəticəsində əsir düşür.

78. *"Koroğlu ilə Bolu bəy"* qolundakı obrazlarla bağlı doğru fikirləri müəyyən edin.

| Nigar xanım | Dünya xanım |
|---|---|
| 1. Dəmirçioğlunu Koroğlunun yerini öyrənmək üçün göndərir.<br>2. Çənlibeli qorumaq üçün dəlilərin iki hissəyə bölünməsini istəyir.<br>3. Gördüyü tədbirlərlə ağıllı və müdrik olduğu bilinir. | 4. Koroğlunun Bolu bəy tərəfindən tutulmasına sevinir.<br>5. Koroğludan necə əsir düşdüyünü soruşur.<br>6. Qaravaşla birlikdə Koroğlunu quyudan çıxardır. |

A) 1, 4, 6 B) 2, 3, 5 C) 2, 3, 6
D) 1, 3, 4 E) 2, 3, 4

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

79. M.F. Axundzadənin "Hekayəti- müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukünimaşhur" əsəri ilə bağlı klasteri hansı fikirlərlə tamamlamaq olar?




1. Şəhrəfnisə ağlamağının səbəbini izah edir.
2. Şahbaz bəy Parisə getməyinin səbəbini izah edir.
3. Şərəfnisə Şahbaz bəyin Tiflisdə qulluq etməsini istəyir.
4. Bizdə olan adətlərin əksinin Paris əhlində olduğu qeyd olunur.
A) 1, 4 B) 3, 4 C) 2, 3
D) 1, 2 E) 2, 4

80. M.P.Vaqifin *"Pəri"* qoşmasının məzmunu ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Əsərdə təsvir edilən müəllifin özünün də tanıdığı bir gözəldir.
B) Pərini sonaya və günəşə bənzədir.
C) Müəllifə görə gözəl həm mənəvi aləmi, həm də xarici görünüşü ilə gözəl olmalıdır.
D) Gözəlin əlavə bər-bəzəyə ehtiyacı olmadığı vurğulanır.
E) "Artıq ola həm kəmalı gözəlin" – fikrini dönə-dönə təkrar etməklə kamil gözəlliyə üstünlük verir.

81. Bakıxanovun maarifçilik mövzusunda yazılan əsərləri sırasında ***verilə bilməz***.
A) "Miratül-cəmal" B) Mişkatül-ənvar"
C) "Kitabi-Əsgəriyyə" D) "Təhzibül-əxlaq"
E) "Kitabi-nəsihət"

82. Verilən əsərlər əsasında cədvəldəki uyğunluğu müəyyən edin.

| "Qafqaz müsəlmanlarına xitab" əsəri haqqında doğru fikirlər | "Badi-Səba mənim dərdi dilimi" əsəri haqqında **yanlış** fikirlər |
|---|---|
| 1. Tənqidi mövzuda yazılan əsərdə biganə məmurlardan narazılıq edilir.<br>2. Nadanlıq insanların pərişan olmalarının əsas səbəbi kimi göstərilir.<br>3. Əsərdə elmsiz insanlar heyvana bərabər tutulur. | 3. Məhəbbət mövzusunda yazılıb.<br>4. Bütün bəndlərdə bədii sualdan istifadə edilib.<br>5. "Yer üzünün qibləgahı" saydığı sevgilisindən şad xəbər alacağına inanmır. |

A) 1, 3, 4 B) 2, 4, 5 C) 1, 3, 5
D) 2, 3, 5 E) 1, 2, 5

**Açıq tipli test tapşırıqları:**

83. Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| *"Hikmətin fəziləti" əsəri haqqında* ***doğru*** *fikirlər* | *"Hayıf ki, yoxdur" əsəri haqqında* ***yanlış*** *fikirlər.* |
|---|---|
| 1. Hadisələr İranda baş verir. | 4. Heca vəznində, qoşma janrındadır. |
| 2. Padşah xəstələndiyi üçün həkimə öz üzüyünü göndərir. | 5. Qarabağ sarayı ilə Kür qırağı qarşılaş-dırılır. |
| 3. Əsərdə hər şeydən xeyirli olan hünər idi. | 6. Əsərin əsas mövzusu kənd gözəllərinin tərifinə həsr edilmişdir. |

84. "Durna teli" qolunda baş verən hadisələrin düzgün ardıcıllığını müəyyən edin.
1. Xoca Əziz Qıratla Çənlibelə gəlir.
2. Koroğlu Bağdadda ilk salam verən dəlisinə yüz qızıl verəcəyini deyir.
3. Koroğlu qocaya Muradbəylidən olduğunu deyir.
4. Koroğlu "igidin başı qalda gərək" deyə düşünür və icazə verir.
5. Koroğlu aşıq paltarında meydana girir.

85. ***Yanlış*** fikirləri müəyyən edin.
1. "Əl üstə kimin əli" – uşaq orqanizminin hərəkətə olan ehtiyacından yaranmışdır.
2. "Dastani- Əhməd Hərami" – epik şeirin ilk nümunəsidir.
3. "Çahargah" – qeyri-real hadisələr baş verir.
4. Əfsanələrdə nəzmlə nəsrin növbələşməsinə yer verilir.
5. Məsəlləri atalar sözündən fərqləndirən fikrin ümumiləşmiş və bitkin şəkildə verilməsidir.

86. Ə. Xəqaninin "Gənclərə nəsihət" əsəri ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Əruz vəznində, məsnəvi şəklində yazılmışdır.
2. Müəllif əsərdə uşaqlıq xatirələrindən də bəhs edir.
3. Nifaq, hiylə, oğurluq kimi mənfi keyfiyyətlər tənqid edilir.
4. Elmli olmağı hər şeydən üstün tutur.
5. Vəfa və etibar kimi gözəllikləri fitnəkarlığın məhv etdiyi vurğulanır.
6. Bəzi hissələrində sarayda olan haqsızlıqları da dilə gətirir.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

87. Qasım bəy Zakirin əsərləri ilə bağlı uyğunluğu müəyyən edin.
1 – "Badi-səba, mənim dərdi dilimi..."
2– "Durnalar"
a. Sonuncu bəndə müəllif özünə müraciət edir.
b. Əsərdə ancaq vətən həsrətinə, qəribliyin gətirdiyi hisslərə geniş yer verilib.
c. Əsərin lirik qəhrəmanı sevdiyini yüksək dəyərləndirir.
d. Sevdiyindən xoş üz görmədiyi üçün ona qarşı inamı itir.
e. Dövrün ictimai qüsurlarını üstüörtülü şəkildə göstərmişdi.

***Sizə təqdim olunmuş nümunəni diqqətlə oxuyun və 88-90 saylı tapşırıqları yerinə yetirin.***

**Qaçaq Kərəm**
*(dastandan bir hissə)*

İsgəndər kişi Kərəmə hələ balacalıqdan at minməyi, güllə atmağı öyrətmişdi, hara gedirdisə, onu da özü ilə aparırdı.

İsrafil ağa isə kəndin hörmətli adamlarından sayılırdı. Kərəmlə həmyaşıd olardılar. O, Kərəmin qoçaqlığını çoxdan görüb-eşitmişdi. Odur ki onunla dost olmuşdu.

Günlərin bir günü Kərəmlə İsrafil ağa Qarayazı meşəsinə ova çıxmışdılar. Hava xoş idi, sanki sərin mehlə yarpaqlar pıçıldaşırdı. İsrafil ağa soyunub çayda çimməyə başladı. Kərəm də soyunmaq istəyirdi ki, bir də nə görə? Bir az aralıda ağalardan biri sürüsünün çobanını möhkəm döyür, dişinin dibindən çıxanı deyirdi.

Kərəm suya atılmaq fikrindən daşınıb özünü ora yetirdi. Ağaya dedi:

- Ağa, bu fağırın təqsiri nədir ki, onu belə əzişdirirsən?

- Bir qoyunumun başını əkib, ancaq boynuna almır. Buna görə döyürəm. Döyülməsə, hər dəfə bir qoyunun başını kəsər. Bu çoban tayfasını yaxşı tanımırsan. Elə bilirlər öz dədələrinin qoyunlarıdır, kefləri gələndə kəsib yeyirlər, daha demirlər ki, çobanlıq eləməyə məndən nə qədər pul alırlar.

Ağa belə deyib təzədən qamçısını havada oynatdı, sonra başladı çobanı yenidən döyməyə...

Ağanın insafsızlığı Kərəmi lap acıqlandırdı. Yaxınlaşıb ona elə bir ağır şillə şəkdi ki, ağa yerində fırfıra kimi fırlanıb tirtap torpağa sərildi. Bu zaman İsrafil ağa da əynini geyinib özünü yetirdi. Gördü ki, Kərəm ağanı yerə sərib.

Ağa İsrafilin tanışı idi. Adı da Tavat idi. Kərəm əlini bir də havaya qaldırıb Tavat ağanı vurmaq istəyirdi ki, İsrafil ağa araya keçdi. Tavat üst-başının tozunu çırpıb dedi:

- Yaxşı, Kərəm, qurban olasan bu İsrafil ağaya…Yoxsa səni tikə-tikə edərdim. Vaxt olar, görüşərik!

Kərəm qımışıb dedi;

- Görüşərik, niyə görüşməyək?! Mütləq görüşərik!

88. Mətnə əsasən cədvəli tamamlayın.

| **Obraz** | **Xüsusiyyəti** | **Əsaslandırma** |
|---|---|---|
| Kərəm | | |
| Tavat | | |

89. Əsərlərə əsasən cədvəli növ və janr xüsusiyyətləri baxımından doldurun.

| **“Qaçaq Kərəm”** | **“Dastani-Əhməd Hərami”** |
|---|---|
| 1. | 2. |
| 3. | |

90. “Qaçaq Kərəm” mətni əsasında cədvəli tamamlayın.

| ***Fərqli bədii təsvir vasitələri*** | ***Həmin təsvir vasitəsinə aid mətndən nümunə*** |
|---|---|
| 1. | |
| 2. | |

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1